ELMİ İŞ

Azərbaycan Respublikası
Aylıq Beynəlxalq Elmi-nəzəri jurnal

№ 4 (20)

НАУЧНАЯ РАБОТА

Азербайджанская Республика
Ежемесячный Международный
Научно-теоретический журнал

№ 4 (20)

SCIENTICAL WORK

Azerbaijan Republic Amonth International
Science oritical journal's

№ 4 (20)

Bakı – 2010

MÜNDƏRİCAT

Ədəbiyyatşünaslıq

ORUC BƏY BAYAT, YOXSA PERSİYALI DON XUAN?

Jalə QƏMBƏRLİ, *ADU-nun baş müəllimi*

Respublikamız dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan tarixinin, ədəbiyyatının daha dərindən öyrənilməsi, xalqımızın unudulmuş övladlarının üzə çıxardılması çağdaş elmimizin diqqət mərkəzində duran problemlerindəndir. Xalqımızın belə övladlarından biri də son dərəcə maraqlı və macəralarla zəngin həyat yaşamış son vaxtlara qədər Avropada Persiyalı Don Juan və ya Persiyalı Don Xuan adı ilə tanınmış Oruc bəy Bayatdır.

1599/1601 Səfəvi səfirliyinin katibi kimi İspaniyaya getmiş Oruc bəy Qızılbaşların Bayat tayfasından olan Sultanəli bəyin oğlu olmuşdur. Sultanəli bəy sarayın sayılan şəxslərindən biri olaraq Məhəmməd Xudabəndinin və onun oğlu Həmzə Mirzənin ən çətin və məsuliyyətli tapşırıqlarını yerinə yetirmiş və döyüşlərin birində qəhrəmanlıqla həlak olmuşdur.

1590-cı ildə Səfəvi dövləti Osmanli imperiyası ilə sülh bağlamaq məcburiyyətində qalır və müqaviləyə əsasən Şərqi Gürcüstan, Ermənistan, Kürdüstan və demək olar ki,bütün Azərbaycan Osmanlı imperiyasının hakimiyyəti altına keçir. Lakin bütün bunlara baxmayaraq, Şah Abbas hökuməti torpaqları geri qaytarmaq fikrindən əl çəkmir və yeni müharibəyə başlamaq üçün hazırlıq görür. Məhz elə bu dövrdə İsfahana məşhur Şerli qardaşları gəlir və Şah Abbasla görüşləri zamanı onu Avropadan dayaq almaq üçün oraya nümayəndə heyəti fikri ilə razı salmağa çalışırlar. Və artıq Avropa dövlətləri üçün də təhlükəyə çevrilən Osmanlı imperiyasına qarşı Avropa dövlətləri ilə Səfəvi dövlətinin maraqları obyektiv baxımdan üst-üstə düşdüyü üçün Şah Abbas bu fikirlə razılaşır. Səfirliyin başında Hüseynəli bəy dururdu və bu səfər zamanı onu dörd katib və on beş qulluqçu müşayət edirdi. Səfirliyin birinci katibi isə Oruc bəy Bayat təyin edilir.

Bundan başqa, Şah Abbasın inamını qazanan Antoni Şerli səfər zamanı Səfəvi səfirini müşayət etmək və Avropa monarxları ilə danışıqlarda iştirak etmək tapşırıqlarını alır. Hüseynəli bəyin diplomatik missiyası 8 Avropa ölkəsində - Almaniya, Roma, İspaniya, Fransa, Polşa, Venesiya, İngiltərə və Şotlandiyada olmaqdan ibarət idi.

1599-cu il 9 iyunda İsfahanı tərk edən səfirlik üzvləri noyabr ayında Moskvaya çatıb, qışı orda keçirdikdən sonra yola düşüb, 1600-cü ilin payız ayında Almaniyaya çatılar. Burada imperator Rudolf tərəfindən təntənəli şəkildə qəbul edilən səfirlik üzvləri Venesiyaya yola düşürlər. Lakin Venesiya hakimi türk səfirinin onun sarayında qonaq olduğunu bəhanə edərək Səfəvi səfirinin onu qəbul etməsi üçün yazılmış xahiş məktubuna rədd cavabı verir. Romaya yola düşdükləri

vaxt isə Hüseynəli bəy haqlı olaraq Antoni Şerlini Roma papası üçün nəzərdə tutulmuş qiymətli hədiyyələri oğurlamaqda günahlandırır. Bununla əlaqədar olaraq, onlar ayrı-ayrılıqda IV Klement tərəfindən qəbul edilirlər. Bu mübahisədən sonra Şerli səfirlik üzvlərini burada qoyub, Venesiyaya qayıdır. Romada isə səfirliyin üç nəfər üzvü Vatikanda qalaraq xristianlığı qəbul edirlər. Hüseynəli bəy isə digər səfirlik üzvləri ilə İspaniyaya çatıb 2 ay müddətində Valyadolid şəhərində III Fillipin sarayında qonaq olur. İspan monarxına Şah Abbasın məktubu çatdıran Hüseynəli bəy vətənə qayıtmağa hazırlaşır. Öz diplomatik missiyasını yalniz 3 ölkədə - Almaniya,Roma və İspaniyada yerinə yetirən səfir digər 5 ölkədə olmaq fikrindən imtina etməli olur. Bu zaman isə onunla yeni gozlənilməz hadisə baş verir. Səfirliyin 4 katibindən üçü islama xəyanət edərək xristianlığı qəbul edirlər. Onlardan biri sonradan Persiyalı Fillip adını alan və səfirin yaxın qohumu olan Əliqulu bəy, ikincisi isə Persiyalı Dieqo alan Bünyat bəy, üçüncüsü isə xaç anası İspaniya kraliçası Marqarita olan Persiyalı Don Xuan adını alan Oruc bəy Bayat olur.

Son vaxtlara qədər Oruc bəyin 1605-ci ildə Valyadolid şəhərində öldürüldüyü güman edilirdi. Bu səhv fikir Paskual de Qayanqosun İspaniya jurnalında Pinero de Veyqanın " Fastiqini" kitabında kiçik parçaları çap etdirməsindən sonra yayılmışdır. Burada o göstərir ki, 15 may 1605-ci ildə Don Xuanla İran səfiri arasında baş verən mübahisə zamanı səfir Don Xuanı qılıncla öldürmüşdür. Lakin "Fastiqini" tam şəkildə çap edildikdən sonra məlum olmuşdur ki, Pinero de Veyqa bu hadisə haqqında yazarkən səfirin Don Xuanı deyil, Don Xuanın səfiri öldürməsini göstərməmişdir. Oruc bəyin sonrakı taleyi haqqında dəqiq heç bir şey məlum deyildir. N.Kortasa görə ,o, kitabı nəşr edildikdən sonra sarayın mötəbər şəxslərindən birinə çevrilmişdir.

Oruc bəyin Azərbaycan – İspaniya ədəbi əlaqələrinin inkişafında böyük rol oynamış, Azərbaycan tarixi siyasi və mədəni həyatına dair yazılmış olan "Hekayələr" 1604-cü ildə Valyadolid şəhərində nəşr edilmişdir. N.A.Kortes öz müsahidələri əsasında belə bir nəticəyə gəlmişdir ki, Oruc bəy "Hekayələr" kitabını əvəl fars dilində yazmış və sonradan ispan dilinə tərcümə etmişdir. Bu kitab 1988-ci ildə O.Əfəndiyev və A.Fərziliyev tərəfindən tərcümə edilərək, "Oruc bət Bayatın – Persiyalı Don Xuanın kitabı" adı altında nəşr edilmişdir. Kitab 3 hissədn ibarətdir : I kitab 13 fəsildən ibarət olaraq İran tarixinə həsr edilmişdir. Müəllifin gözəl təsviretmə qabiliyyəti ilə əlaqədar olaraq, biz orta əsr şəhərlərində əhalinin adət və ənənələri,müəyyən mərasimlərin keçirilməsi və s.haqqında zəngin və maraqlı məlumat əldə etmiş oluruq

12 fəsildən ibarət olan II kitab Oruc bəyin Vətətndən əbədi olaraq ayrıldığı müddətə qədər olan dövrə əhatə edir.

8 fəsildən ibarət olan III - sonuncu kitab əvvəlcədən təsvir etdiyimiz Oruc bəyin Səfəvi dövlətini tərk etməsindən başlayaraq, Avropaya qədər olan səyahətini ətraflı təsvir edir.

Qiymətli məlumatlarla bərabər Oruc bəyin - Don Xuanın təsvirlərində açıq-aşkar səhvlər və qeyri-dəqiq məlumatlar da vardır. Çünki əsərin yazıldığı müddət ərzində müəllif müasirlərinin yazdığı ən lazımi tarixi-coğrafi əsərlərə belə malik olmamışdır. Lakin əsərin bütün hissələri tarixi-siyasi faktlara əsəlanmasa da, bütövlükdə götürdükdə Oruc bəy – Don Xuan Azərbaycan və İran tarixi haqda çox qiymətli məlumatlara malik olmuşdur. Əsərin əsas xarakterik xüsusyyəti müəllifin xristianlığı qəbul etmiş keçmiş müsəlman olmasıdır. Əsərdə müəllif əvvəllər mənsub olduğu islam dininə və onun tərəfdarlarına tənqidi yanaşır. Hər şeyə o, Avropalı gözü ilə baxmağa çalışır. Lakin bütün bunlara baxmayaraq oruc bəyin "Hekayələr" kitabı Azərbaycanın Avropa dövləti ilə, ilk növbədə İspaniya ilə ədəbi əlaqələrinin inkişafında böyük rol oynayaraq Azərbaycanın İspaniyada tanınmasına xidmıt etmişdir.

Nəticə etibari ilə Oruc bəyin həyat yaradıcılığı, müasirlərinin bu şəxs haqda mülahizələrinə ciddi və kompleks halda elmi yanaşma tələb edir.

РЕЗЮМЕ

В этой статье говорится об истории литературных связей между Испанией и Азербайджаном, а также о заслуге книги Дон Жуана в развитии этих отношений.

RESUME

Тще артиьле деалс wитщ тще щисторй оф тще Спанисщ-Азербаижани литерарй релатионс. Апартиьулар аттентион ис паид то Оруджбей Байат, а муслим бй религион, wщо адоптед Ъщристианитй ин Спаин анд wас ъщристенед ас Дон Жуан.

İSLAM ŞƏRQİNİN ORTA ƏSR İSPAN ƏDƏBİYYATINDA ROLU "SİD HAQQINDA NƏĞMƏ"

Jalə Qənbərli, ADU, İspan dili kafedrasının baş müəllimi

Tarixin sınaqlarından uğurla çıxan orta əsr İspaniyası çox böyük tarixi və siyasi hadisələrlə zəngindir. Bu hadisələr İspan ədəbiyyatından yan keçməyərək,onun gələcək inkişafında həlledici rol oynamışdır. Beləki 711-ci ildə Şimali Afrikadan ərəb tayfaları olan bərbərlərin (mavrlar) Priney yarımadasına daxil olması .Vestqot kralı Rodriqonun qoşunlarının darmadağın edilməsi ilə nəticələndi. Qısa bir müddət ərzində Kontabriya dağları arsında yerləşən Asturiya krallığını çıxmaq şərti ilə İspaniyanın bütün ərazisi ərəblərin ixtiyarına keçdi. İlk öncə ərəblərin istilası altından bütün ərazilər mərkəzi Damaskda yerləşən Xilafətin tabeçiliyində olsa da, çox tezliklə müstəqil Kordova əmirliyi,bir qədər sonra isə bütün istila edilmiş ərəb torpaqlarini öz hakimiyyəti altında birləşdirən Kordova xilafəti yarandı. Kordova çox tezliklə Avropanin ən qüdrətli dövlətlərindən birinə çevrilərək,digər Avropa dövlətləri ilə sıx əməkdaşlıq etməyə başladı. Kordova dövrünün ən gözəl şəhərlərindən birinə çevrildi.Onun şair və alimlərinin şöhrəti isə bütün Avropaya yayıldı. Ərəblərin Piriney yarımadasını ələ keçirməsi yalnız tarixi nöqteyi-nəzərdən böyük əhəmiyyət kəsb etmir.Çünki demək olar ki,8 əsr ərzində burda iki fərqli dünya,iki fərqli mədəniyyət xristian Qərbi ve müsəlman Şərqi yaşayır və inkişaf edirdi. Ərəblərin İspaniyaya hücumu yalnız istila ilə nəticələnmədi,bu istila ispan xalqına böyük tövhələr verdi. Belə ki,xilafət bütün vasitələrlə burada elmin müxtəlif sahələrinə,xüsusəndə ədəbiyyatın inkişafına böyük təkan verdi. Fikrimizi əsaslandırmaq üçün deyək ki, X əsrdə Xəlifə II Əl Hakamın Kordovada yerləşən şəxsi kitabxanasında 400 mindən çox kitab vardı ki,onların içərisində yunan və roma alimlərinin əsərləri həm orijinal,həm də tərcümə variantlarında saxlanılırdı. Məhz ərəblərin sayəsində bütün Avropa Aristotel ve Platonun doktrinalarının təhrif deyil,orijinal formaları ilə tanış olmuşlar. Universitetlərin ve digər təhsil ocaqarının yaranması da məhz bu dövrlərə aiddir. Ərəblər İspaniyaya özləri ilə birlikdə gözəl poeziya da gətirmişlər. Məlum olmuşdur ki,İspan lirik poeziyası məhz ərəb lirik poeziyasının təsiri altında formalaşmışdır. Burada möhtəşəm saray və abidələrin tikilməsi də ərəblərin adı ilə bağlıdır. Lakin bütün bunlara baxmayaraq ərəb istilasından (conquista) dərhal sonra ispan xalqı öz torpaqlarını yadelli işğalçılardan azad etmək mübarizəsinə,yəni reconquistaya başladı. 7 ərs ərzində istila edilmiş torpaqlarını qaytarmaq üçün mübarizəyə qalxan ispan xalqına öz məqsədlərinə çatmaq üçün yeddi əsr lazım oldu. Məhz bu 7 əsrlik mübarizə qəhrəmanlıq dastanlarının yaranması üçün münbit şərait yaratdı. Bu qəhrəmanlıq

dastanlarının qorunaraq nəsillərdən-nəsillərə keçməsindəsə peşəkar müğənni ifaçıların böyük xidməti olmuşdur. Kastilyada xuqlar,Qalisiyada joqrar,Katoloniyada coqlar adlanan bu şəxslər profesional şair olmaqla yanaşı, həm də artisdirlər.Onlar diyarbadiyar gəzərək rəqsləri,mahnıları ilə camaatı əyləndirir,pantamima və akrobatik hərəkətlər nümayiş etdirirdilər. Eyni zamanda bu şəxslər arfanın müşayiəti ilə qəhrəmanlıq dastanlarını oxuyurdular. Qeyd edək ki,xuqlar yalnız bu poemaları oxumurdular, onlar eyni zamanda bu poemaların müəllifi ve həmmüəllifi olurdular. Bu dastanlarda XI və XIII əsrdə baş vermiş siyasi hadisələr,mavrlarla mübarizə öz əksini tapmışdı. Bu dövrdə 15-ə qədər qəhrəmanlıq dastanları yazılmışdır ki,onların da zirvəzi " Mənim Sidim" haqqinda (El cantar de Mio Sid) nəğməsi sayılır. Dastanın qəhrəmanı həqiqətən də mövcud olmuş tarixi şəxsiyyət Rodriqo Dias (Rui Dias)dır. Bir neçə ərəb döyüşçüsünü döyüşlərdə məğlub etdikdən sonra "Sid"(ərəbcə Sid-ağa,cənab deməkdir) təxəllüsünü qazanmışdır. 1047-ci ildə anadan olan bu şəxs nüfuzlu və zəngin olmaqla yanaşı kral Sançonun sağ əli olaraq,onun bayraq daşıyanı kimi şərəfli bir vəzifəyə layiq görülmüşdür. Alfonsun hakimiyyətə gəlməsi Sidin mövqeyini dəyişmiş və bu hadisə sonradan onun saraydan qovulması ilə başa çatır. Bundan sonra bir müddət ərəblərə qulluq edən bu şəxs sonradan onlara qarşı çıxır.Bir neçə uğurlu qələbədən sonra 1092- ci ildə ərəbləri məğlub edərək,Valensiyanı ələ keçirir. Zamanımıza kimi gəlib çatmış "Mənim Sidim" haqqinda nəğmə Pedro Abbat tərəfindən qələmə alınmışdır. Müəllifi olan xuqların adı isə bəlli deyildir. Dastan 1755-ci ilə kimi Burqos yaxınlığında bir monastırda saxlanmış Tomas Antonio Sançes terəfindən tapilaraq 1779-cu ildə nəşr edilmişdir. Poema 3 hissədən ibarətdir. I hissə " Sürgün olunma haqqında nəğmə " adlanır. Bu hissə Sidin məcbur olaraq Kastilyanı tərk etməsi, bir-birinin arxasınca bir neçə ərəb şəhərini ələ keçirməsi,əldə edilmiş sərvəti döyüşçülər arasında ədalətlə bölməsindən ibarətdir.

II hissə " Toy haqqında nəğmə"adlanır. Bu hisədə Sidin növbəti qəhrəmanlıqları,Mərakeş kralı Yusifi məglub etməsi,Valensiyanı ələ keçirməsi,kralla barışması və istəməsədə kralın istəyi ilə qızlarını ərə verməsindən danışılır.

III hissədə " Karpel meşəsində təhqir haqqinda" nəğmə adlanır. Bu hissədə Sidin toydan bir qədər sonra vətənə qayıtmaq istəməsi ilə başlayır. Sidin və onun əhatəsinin onlara etdikləri istehzanı qızlarından çıxaraq,onları döyüb qaranlıq meşədə yırtıcı heyvanlara yem olmaq üçün qoyub getmələri və Sidin bundan xəbər tutaraq, qızlarını xilas etməsi və kürəkənlərini layiqli cəzalandırmasından söhbət açılır. Dastanın demək olar ki,bütün tədqiqatçıları onun tarixi reallıqla böyük uyğunluğunu təsdiq edirlər. Həqiqətən də poemada yalnız Sid deyil,bütün qəhrəmanlar - istər Sidin ailəsi,istərsə də ən yaxın əhatəsi tarixdə mövcud olmuş şəxslərdir. Bundan başqa poemada cərəyan edən hadisələr həqiqətən də baş vermiş hadisələrdir. Müəllif Sidi reconquistaya başçılıq edən,yalnız vətənini

yadelli işğalçılardan təmizləmək arzusu ilə yaşayan bir xalq qəhrəmanı kimi vermişdir. Müəllif bunun üçün real faktlara əsaslansa da ,onun qəhrəmanlıqlarını bir qədər şişirdətək,onun ilk gündən mavrlara (ərəblərə) qarşı mübarizəyə başçılıq etməsini göstərmişdir. Tarixdəsə Sidin bir müddət ərəb Əl Mütamimə qulluq etməsi barədə faktlar mövcuddur. Bundan başqa onun ələ keçirdiyi bütün torpaqlarda ərəblərlə çox qəddar rəftar etməsi barədə poemada söhbət belə açılmır. Dövrünün tipik feodalı,zənginliyini hər yolla artırmağa can atan bu şəxs poemada vətənini dəlicəsinə sevən mehriban ata və ər,qayğıkeş ağa,ədalətli döyüşçü kimi göstərilir. Başqa sözlə desək, müəllif xalqın öz qəhrəmanında görmək istədiyi bütün müsbət keyfiyyətləri bu şəxsdə birləşdirmişdir. Məhz bu xüsusiyyətlər də onu İspaniyanın böyük milli qəhrəmanı və poemada adlandırdığı kimi "Mənim Sidim"ə çevrilir.

Bu dastan ilk öncə hərəkətverici qüvvəsi sadə xalq kütlələri olan reconquista haqqında dastandır. O ilk öncə xalqın öz torpaqlarının azadlıqları uğrunda apardıqları mübarizəni özündə əks etdirən bir dastandır. Bundan başqa tanınmış tədqiqatçı P.Menendes Pidalın fikrincə bu dastan İspaniyanın tarixi,ədəbiyyatı barədə yazılan hər bir elmi iş üçün ən əsas mənbədir.İlk dəfə 1799-cu ildə çap edilmiş dastan ingilis Robert Sautiyə görə ispan dilində yazılmış ən gözəl əsərdir.Şotlənd Xellamsa bu poemanın Danteyə qədər Avropada yazılan bütün əsərlərdən öndə gedən bir əsər olduğunu göstərir.

İsifadə edilmiş ədəbiyyatın siyahısı :

Штейн А.Л. История испанской литературы
Издательство «Высшая школа», 1976
Смирнов А. А Средневековая литература Испании
Издательство «Наука», 1969
Плавкин З.И Литература Испании IX – XV веков, Москва, 1986
Менендес Пидаль « Избранные произведение» Испанская литература средних веков и эпохи Возрождение Москва, 1961
Нусинов И.М История литературного героя Москва, 1958

РЕЗЮМЕ

В этой статье говорится о влиянии арабов на развитие испанской литературы средних веков, а также о новом взгляде в поэме Песня о моем Сиде.

SUMMARY

In this article speak about influence of Arabian occupation and about the development of Spanish literature in the Middle Ages and in the same time about new look in the poem Song about Sid.

İSPAN DİLİNDƏ MÖVCUD ƏRƏB MƏNŞƏLİ NİDALARIN ETİMALOJİ CƏHƏTDƏN ARAŞDIRILMASI

Nuridə MƏMMƏDOVA, *ADU*

Alınma sözlər ispan dilinin lüğət tərkibində müəyyən faiz təşkil edir. Onlar həm mənbə, həm də mənşə baxımından müxtəlifdirlər. Alınma sözlər bütün dillərin leksikasında var. Lakin bütün dillərdə onların kəmiyyəti və köçmə tarixi eyni deyildir. Bu sözlər dillərin bəzisində çox, digərində isə azdır. Bunu müəyyən tarixi amillərlə, zaman və məkanla, əlaqə və münasibətin dərəcəsi ilə əlaqələndirmək olar.

Zaman – zaman ispan dilində özünü yunan mənşəli sözlər, germanizm, ərəbizm, amerkanizm, luisitanizm (portuqal və Braziliyadan keçən sözlər), qalisizm, italyanizm, anqlisizm və s. kimi sözlər büruzə verməyə başlamışdır. Ərəb mənşəli sözlər onun lüğət tərkibinin 15% - ni təşkil etmişdir.

Dilin lüğət tərkibinə keçən sözlərin bir qismi könüllük prinsipinə əsaslanıb alınma sözlər adlanır ki, bu tip tələbatla əlaqədar alınan sözlərdir. Bunların ömrü uzun olur, çünki onlar həmin dilin qayda – qanunlarına uyğunlaşaraq möhkəmlənir. Hamı tərəfindən işlədilir, o dilin tələbatını və ehtiyacını ödəməyə xidmət edir.

Bir qism gəlmə sözlər isə zorakılıq, məcbur etmə yolu ilə dilin lüğət tərkibinə keçən sözlərdir. Həmin sözlər ərəb istilaları dövrü ilə əlaqədardır. Bu qəbildən olan sözlər islam dini və ya əsasən dövlət aparatı ilə bağlıdır. Zorakı assimilyasiya yolu ilə keçən ərəb sözlərinin çoxu çoxdan ömrünü başa vurmuşdur. Onlar ərəb assimilyatorlarının hökmüranlığı dövründə və ərəb xilafətinin süqutundan bir qədər sonra dildə öz mövqeyini itirərək sonralar get – gedə aradan çıxmağa başlayır, demək olar ki, bu qəbildən olan sözlərin çoxu ispan dilinin lüğət tərkibini tədricən tərk etmişdir.

Dil başqa dillərdən sözləri ancaq yeni əşya və məfhum ifadə etmək üçün almır, onların içərisində əşya ifadə etməyən, hiss – həyacan bildirən sözlər də vardır.

Bu məqalədə biz hələ də dildə aktivliyini qoruyub saxlaya bilmiş, ispan danışıq nitqində tez – tez təsadüf olunan ərəb mənşəli ispan nida sözlərini (interjeccion) leksik – semantik, etimaloji cəhətdən araşdırmağa çalışacağıq:

Məsələn, bunların içərisində ispan dilində geniş vüsət tapmış "Ojala!" nidası xüsusi ilə fərqlənir ki, bu da çox – çox arzuladığımız bir şeyin Allahın izni və köməkliyi ilə tezliklə həyata keçməsini istədikdə dilimizə gətirdiyimiz bir kəlmədir.

Onu etimaloji cəhətdən araşdırıqda onda bir maraqlı faktla qarşılaşmış oluruq ki, bir çox mənbələrdə əvvəllər tez – tez qeyd olunduğu kimi "Ojala!" nida sözünün kökündə "Si Dios quiere" (Allahın izni ilə) yəni ərəbcədə (in sha`a Allah) sözü deyil, (Law sha`a Allah) ərəb mənşəli sözü durub ki, bu da mənaca "Si Dios guisiera" (əgər

Allah yol açsa, istəsə) ifadəsinə uyğun gəlir. Bu faktı aşağıda qeyd olunmuş mısalla sübuta yetirməyə çalışaq:

Biz "Si Dios quiere" ni işlətmək istədiyimiz yerdə "Ojala!" nidasını istifadə edə bilmərik.Məsələn,əgər bir kəs anasına, hər hansı bir yaxın adamına, və ya digər bir kəsə yatmazdan əvvəl "hasta manana,si Dios quiere" desə onda o kəsin, anasının, və ya yaxının gecəni rahat və arxayın yatmasına şərait yaratmış olar. Yox əgər "hasta manana, ojala" demiş olsa, onda bu fikir və ya cümlə ilə müraciət etdiyi kəs və ya ana bütün gecəni fikirdən yatmamış olar, çünki bu kəlmələri dilinə gətirmiş kəsin və ya balasının, qohumunun səhərə sağ çıxmaq ümidlərinin olmadığına dəlalət etmiş olur.

Ərəbcə "in" hissəciyi real vəziyyət ilə işlənir ki, bu da ispan dılində indiki zamanda olan fellə ifadə olunur, "law" ərəb hissəciyi isə qeyri – real vəziyyətlə əlaqələndirilir ki, bu da mümkün olduğu qədər də namümkün hesab olunur. İspan dılındə isə bu cür ifadə tərzi ya "İmpertecto de Subjuntivo" ya, yəni "Si Dios quisiera", ya da "Pluscuamperfecto de Subjuntivo" ya, yəni "Si Dios hubiese querido" variantına müvafiq gəlir. Bu cür ifadə (Pluscuampertecto de Subjuntivo ilə) isə ispan dilində mümkün variant kimi məqsədəuyğun sayılmır. Bu səbəbdən də "ojala" ispan nida sözünün mənşəyində duran ərəb mənşəli birləşmənin real olamayan bir istəyin ifadəsi olması daha məqsədəuyğun görünür: "Ojala!"= "Si Dios quisera"

"Si Dios quiere" ifadəsi dildə ən çox reallaşma şansı üstünlük təşkil edən qəti gələcəyi bildirmək üçün işlədilir. Məs, manana pasara a vetre ("Si Dios quiere"). Səhər səni görməyə gələcəm (Allahın izni ilə)

Bu birləşmə əndəlüz ərəb dialektində "Law sha`a llah", sonra "Lawshalla", daha sonra "Lo shala" və nəhayət qədim kastelyano dilində də başlanğıc "L" hərfi reduksiyaya uğrayaraq "oxala" şəklini alınışdır ki, bu da tədricən dildə tələffüz zamanı dəyişikliyə uğrayaraq "ojala" şəklinə düşmüşdür.

Ole! - ərəb mənşəli hiss – həyəcan bildirən, emosiya ifadə etmək üçün istifadə edilən, dildə mövcud digər bir nida sözüdür. Mənşəcə "Wa`llah" ərəb sözündən gələn bu nida " Por Dios!" (Allah xətrinə, sən Allah) mənasına müvafiq gələrək dildə hal – hazırda bravo!, afərin! kimi məna çalarlıqları verir. Bu nida söz ən çox öküz döyüşləri zamanı, flamenko rəqsində, müsiqı nömrəsi ıfa olunanda və s. zamanlarda tamaşaçıların iştirakçıları daha da ruhlandırmaq, canlandırmaqdan ötəri, onların ifalarının bəyenilməsinin təsdiqi və təcəssümü kimi istifadə olunur.

Hamıya çox yaxşı məlum olan digər bir söz "Hola!" da həmçinin ərəblərdən gələrək "ahla" ərəb sözünə müvafiq gəlir ki, bu da İspaniyada hal – hazırda geniş yayılmış qeyri – rəsmi salamlama vasitəsi hesab olunur.

Ala! – "ya – Allah" ərəb sözünün qısaldılmış variantı olub " Oh Dios" (Ay Allah, ya Allah) kimi ispan dilinə tərcümə olunaraq "gəl, tez ol, cəld ol, tələs, hünərlən" kimi hal – hazırda danışıq dilində məna çalarlıqlarına uyğun gəlir. Bu söz həmçinin "Hala!" kimi də yazıda təsadüf olunur. Məs, "Hala, que nos vamos!" - cəld ol, gedirik. Həmçinin təəcüb ifadə etdiyi variantlara da təsadüf olunur. Məs. "Hala, vaya torta se ha dado!" – Adə verdıyi blinçikə bir bax!

Hala! – həmçinin atları canlandırmaq, sürətini artırmaq üçün istifadə olunan nida sözü kimi də özünü dildə biruzə verməkdədir.

"Guala!" – həmçinin ərəb mənşəli söz olub "wallah" = Por Dios! (Allah xətrinə) sözünə müvafiq istifadə edilməkdədir.

Buradan belə nəticə çıxarmaq olar ki, nəinki ispan dilində, bütün dillərdə də həmçinin heç leksik məna kəsb etməyən, yalnız insanların bir şeyə və ya hadisəyə bildirdikləri hiss – həyəcanı, emosiyaları ifadə edən, təəccüb, heyrət, şadlıq, nifrət, qəzəb bildirən nida sözlər də gəlmə xarakter daşıya bilər və onların da dildə aktivliyi keçdiyi dilin qayda – qanunlarına uyğunlaşmasından asılıdır.

Bütün dillərdə, o cümlədən də ispan dilində əsli nidalar ilk yaranışından hiss – həyəcan bildirməyə xidmət edən sözlər olub, heç bir başqa nitq hissəsi ilə əlaqədar deyilsə; Məs, uf!, ay!, oh! və s. kimi: törəmə nidalar müxtəlif yollarla düzəlir ki, bu yollardan da biri başqa dillərdən alınma sözlərin, söz birləşmələrinin nida kimi işlənməsi ilə yaranan nidalardır ki, buna da ərəb mənşəli sözlərin ispan dilinə keçərək tədricən dəyişikliyə məruz qalıb yuxarıda da qeyd etdiyimiz misallardan da göründüyü kimi nida sözü qismində çıxış etməsi halları bariz nümunə ola bilər. Emosiyaların dil təzahürü olan nidalar şifahi nitqə məxsus, yeni tarixi daha qədim olan leksik vahidlərdir ki, yazılı ispan dilində də möhkəmlənmiş, sabitləşmiş ekspresiv – üslubi gücə malikdirlər.

Ədəbiyyat siyahısı

1.Real academia espasola,Diccionario historico de la lengua espasola.Madrid 1960-1992

2.Breve diccionario etimalugico de la lengua castellana.Joan Corominas Madrid 2005

3.Romania Arabica.Tres cuestiones bbsicas:Arabismos,Mozarabe y Jarchas. Federico Corriente 2008

4.Internet materialları

РЕЗЮМЕ

Этимологическое исследование испанских восклицаний арабского происхождения

В статье исследовались восклицательные слова имеющиеся в языке арабского происхождения, которые не потеряли актуальность в наши дни, их происхождения ,лексико-семантический аспект.

SUMMARY

Etimological study of Spanish exclamations of Arab origin.

In the article studies some Spanish exclamations of arab origin which are still used in language, their origin and lexical-semantic aspect.

ERMƏNİ SİYASƏTİ

Əli ƏLİYEV, *AMİ-nin Ağcabədi filialı, «Ana dili, ədəbiyyat və onların tədrisi metodikası» kafedrasının müdiri, baş müəllim*

XIX əsrin əvvəllərində Rusiya Azərbaycanı işğal etdikdən sonra öz hökmranlığını möhkəmlətmək və işğal etdiyi ərazilərdə manqurtlaşdırma siyasəti yeritmək, münaqişə ocaqları yaratmaq kimi perspektiv planlar qarşıya qoymuş və bu planları uğurla yerinə yetirmişdir. Belə bir "parçala hökm et" siyasətini erməni siyasəti adlandırıram. Ümumiyyətlə, Azərbaycan türk millətinə, dövlətçiliyinə, ərazi bütövlüyünə qarşı çevrilmiş hər bir ideya və ideologiyanı erməni siyasəti kimi dərk edirəm. Bu erməni siyasətinin məqsədi hansı yolla olursa olsun Azərbaycan türk millətini yox etmək, Azərbaycan torpaqlarını özününküləşdirmək üçün müxtəlif üsullara, variantlara əl atmaqla Azərbaycanı xəritədən silməkdir.

Rus şovinizmilə erməni məkri 200 ildir ki, Azərbaycan türk millətini məhv etmək siyasəti ilə bir çox işlər görmüş, dədə-baba torpaqlarımızda özlərinə vətən yaratmış, əcdadlarımız olan Albanların ər tayfasının adı altında gizlənən haylar Alban torpaqlarına sahib çıxmışlar.

Belə qənaətə gəlmişəm ki, Ərmən Alban tayfası imiş. Bütün Türk tayfaları ilə və eləcə də Albanlarla düşmən mövqedə olan haylar Ərmən tayfasının xristian olmasından istifadə edərək həmin tayfanın adı altında gizlənmişlər. Ona görə belə etmişlər ki, Alban torpaqlarına sahib dursunlar, vətənsiz bir tayfa özlərinə vətən tapsınlar. Bu ideya onların daimi olaraq xain xislətini tənzimləyən atribut kimi səciyyələnir. Ərmən Alban tayfası İrəvan xanlığının ərazisində yerləşirmiş. Gəlmə tayfa olan haylar Ərmən tayfasını assimliyasiya etmişdir. Ərmən Alban tayfası ilə düşmən mövqedə olan haylar daimi olaraq Alban tayfalarını təqib etmiş, işgəncələr vermiş, qırğınlar törətmiş, tarixin yaddaşında silinməz izlər qoymuşlar. O qədər haylar Türk tayfalarını qovmuşlar ki, bu gün də təhsik bir iş gördükdə-«nə olub, hay gəlir?!»-deyirlər. Yəni ən qəddar düşmən və quduz xalq haylar daimi olaraq türklərin qənimi olmuşdur.

Ərmən sözünün mənasi mən igidəm deməkdir. Filolofiya elmləri doktoru,professor Sadıq Şükürov da belə bir doğru nəticəyə gəlmişdir ki,"ərmən"sözü xalis türk sözüdür(7). Hay tayfaları Ərmən Alban tayfasını tarixən assimliyasiya etmiş və Ərmən adını özləri üçün millət adı seçmişlər. Onlar «ərmən» adını «erməni» formasında qəbul etmişlər. Xalq arasında belə bir fikir dolaşır ki, guya «er»-yer, «məni»-mənim (yer mənimdir) deməkdir. Daimi olaraq yer iddiasında olduqları üçün belə ad seçiblər.

İrəvan sözünü də Yerevan etmişlər. Bu sözdə də daimi yer iddiasında olan haylar «yer» sözündən əl çəkməmişlər. Bu gün erməni dediyimiz xəyanət çamurluğu qədim dövrdə hay və yaşadıqları ərazi isə Hayıstan adlanırmış.

"... erməni kilsəsi Albaniyada ölkəni erməniləşdirmək aləti olmuşdur..... Erməni kilsəsi "Albaniyanın bütün kilsələrində sülh"ü yalnız yadelli işğalçıların köməyi ilə bərqərar edirdi, erməni katolikosluğunun mənafeyi hər dəfə tələb etdikdə erməni kilsəsi həmişə yadelli işğalçılarının köməyinə əl atır, "xaç bayrağı ilə öz yolu üzərində tarixi Albaniya və onun bir hissəsi olan Qarabağ (Arsax) xalqlarını" yox edirdi" (5,11)

Bu yoxetmə bu gün sözün həqiqi mənasında tam başa çatmışdır. Azərbaycanın dədə-baba torpağı olan İrəvan xanlığında və Qarabağ bölgəsində haylar hay salıb, qıy vururlar.

Bizim babamız, cəddimiz olan Albanlardan bizi uzaqlaşdırıb özlərini Alban yurdunun varisləri elan ediblər. Xaça xristianlığa qarşı bizdə kin küdurət oyadıb özləri isə sonradan xristian və xaçik olublar. Halbuki Albanlar xristianlığı ermənilərdən 270 il əvvəl qəbul etmişlər. Ermənilər xaçı bizə «pıxı», özləri üçün «çiçi» kimi təbliğ ediblər. Lakin bu gün də dədə- babalardan bizə yadigar qalmış adət və ənənələrdə xaça tapınma özünü göstərir. Məsələn, atlarda bəd xassəli şiş olduqda onun üstünə xaç şəkilli dağ çəkirlər ki, bədxassəli şiş çəkilsin, yox olsun. Yəni xaç xeyir qüvvə kimi qəbul edilir. Və yaxud bu gün də çörək bişirilərkən onun üzərinə xaç işarəsi çəkirlər. Ulu soylarımızın çoxunun damğası xaç şəklində olmuşdur. Qədim onomastik adlarımızın xaçla bağlı olması fikrimizi bir daha sübut edir: Məs: Xaçınyalı kəndi, Xaçın çayı, Xaçbulaq yaylağı, Zümürxaç kəndi, Xaçmaz rayonu və s.

Ermənilər Azərbaycan xalqına qarşı yürütdüyü məhvetmə siyasətində ərəblərlə, farslarla bir nöqtədə birləşirlər. Belə ki, İslam dinini qılınc gücünə Azərbaycan xalqına qəbul etdirənlər bu xalqı ilkin mənəviyyatından, soy kökündən, inam və inancından, dinindən ayırıblar. Ermənilər də başqa prizmadan yanaşıb Azərbaycan xalqında xiristianlığa qarşı, xaça qarşı ikrah hissi oyadıblar. Bax bu iki məqam eyni nöqtədə birləşir. Hər iki yanaşmanın məqsədi Azərbaycan xalqını öz soy kökündən uzaqlaşdırmaqdır. Ermənilərin isə bu məsələyə belə yanaşmalarının iki məqsədi vardır. Birincisi Azərbaycan xalqının tarixən düşməni olan erməni bu xalqı məhv etmək, manqurdlaşdırmaq istəyir, ikincisi isə ondan irəli gəlir ki, özləri Azərbaycan xalqının soy kökü olan Alban tayfasının birinin adı altında gizlənmiş "hay" dır. Ona görə də Azərbaycan xalqını soy kökündən uzaqlaşdırmağa hər an cəhd göstərir. Məlumbur ki, Albaniya 26 tayfanı əhatə etmişdir. Bu 26 tayfanın əksəriyyəti Türk tayfaları olmuşdur. Alban tayfaları Albaniya ərazisinin sahibi imiş. Bu ərazilərdə "hay" tayfası yaşamayıbdır. "Hay"ların bu məkanda tarixən əraziləri olmayıb. Lakin bu ərazilərə köçürülən"hay"lar özlərinə əbədi məkan seçmək üçün "Ərmən" Alban tayfasının adı altında gizlənib, Albanyanın Ərmənlər yaşayan Ərməniyyə torpaqlarına sahib durublar. Odur ki, onlar heç vaxt razı olmazlar ki, Azərbaycanlılar öz soy kökünə bələd olsunlar və xristian dininin onlardan əvvəl qəbul etmiş babalarını tanısınlar. Axı tarixdən məlumdur ki, Albanlar xiristianlığı "hay"lardan 270 il əvvəl qəbul ediblər. Həmçinin bir də ona görə "hay"lar Ərmən Alban tayfasının adı altında gizlənmişlər ki, həm özlərini Albanların varisləri saysınlar, həm də guya xristianlığı əvvəlcədən qəbul etdiklərini sübut etsinlər. Alban tayfalarından bu günümüzə qədər özünü qoruyub saxlayan və bu gün də öz qədim Alban milli qüruru ilə yaşayan İngiloylar Azərbaycanda 14,9 min nəfərdir. "İngiloylar (14, 9 min nəfər, 1999) dini mənsubiyyətinə görə xristian (gürcü pravoslav kilsəsi) və müsəlman ingiloylara ayrılır. Müsəlmanlar Zakatala rayonunun Əliabad, Mosul və Balakən rayonunun İtitala kəndlərində, xristian ingiloylar isə Qax rayonunun 9 kəndində yaşayırlar. Qədimdə onların yaşadıqları arazi Kambisena (Ereti) adlanırdı və əsas əhalisi ingiloyların əcdadları hesab olunan er və qel tayfalarından ibarət idi. Burada

Alban kilsəsi fəaliyyət göstərirdi. İngiloyların bir hissəsi sonradan zorla gürcüləşdirilmiş Alban tayfalarının qalıqlarıdır".(1,107)

Verilmiş sitatdan aydın olur ki, er tayfası Alban tayfası olmuşdur Haylar bu tayfanın adı altında gizlənmişlər.

Lakin tarixi nə qədər saxtalaşdırsalar da, tarixin daş yaddaşı həqiqəti üzə çıxarır. Bunu ermənilərin öz yazarları da qələmə almışlar Q.Kapantsyan "Xayasa-kolibel armyan" (Yerevan, 1948) əsərində qeyd etmişdir ki, ermənilər VII əsrədək Kiçik Asiyada Hayasa adlı əyalətdə yaşadıqlarına görə "hay" adlandırılmışlar. Buradan aydın olur ki, bunlar erməni deyil haydırlar. Bü gün də onlar bir-birindən millətini soruşduqda-hayes? - (ermənisən?) –deyirlər.

Müasir elmi araşdırmaya əsasən erməni adlandırdığımız bu riyakarlıq çamurluğu Hind-Avropa mənşəli friqlərin bir qoludur. Ulu əcdadları eradan əvvəl XII əsrdə Balkanlardan Kiçik Asiyaya köçmüş, Hayasə əyalətində məskunlaşmış, e.ə. VII əsrdə Urartu dövlətinə qatılmışlar. Urartulular onların bir hissəsini indiki Ermənistan ərazisinə köçürmüşlər.

Buradan aydın olur ki, erməni adlandırılan xalqın adı "hay"dır və yaşadıqları ərazi isə "Hayistan" adlanırmış. Ermənistan ərazisinə gəlmədirlər. Ermənistan qədim Alban tayfası olan Ərmənlərin yaşadıqları Ərməniyyə torpaqlarıdır.

Belə bir nəticəyə gəlmişəm ki, erməni dili də qədim alban dili əsasında formalaşıbdır. Çünki, ermənilər buqələmun xalq olduğu üçün nə varsa assimilyasiya edir, özününküləşdirir. Odur ki, Alban mədəniyyəti bizə erməni dilində gəlib çatmışdır. Erməni kimi tanınan bu xalq Ərməniyyə torpağına yiyələnmiş haylardır. Haylar özgə malını, dilini, yerini, mədəniyyətini və s. tez mənimsəyən, ümumiyyətlə, buqələmun olan bir şeydilər.

Bu fikri Alban dilini,mədəniyyətini,əlifbasını,ümumiyyətlə,Alban izini yer üzündən silib erməniləşdirən hayların tarixi gedişləri,durumları və xarakterik xüsusiyyətləri şərtləndirir."Mingəçevirdəki qazıntı zamanı tapılan Alban əlifbası parçaları təsdiq edir ki,v-vıı əsrlərdə Arranın öz yerli yazısı var idi və bu yazı ölkədə ərəb hökmüranlığı daha qurulmazdan əvvəl mövcud olmuşdur...Arranda yazılı mənbələr və ədəbiyyat xəlifə Əbd ül-Malikin(685-

705) hökmranlığı dövründən başlayaraq məhv edilmiş və ya sıxışdırılıb aradan çıxarılmışdır Divanxanalar ərəb dilinə keçdi.Alban yazısı ,habelə fars və Xarəzm yazıları,əhali içərisində savadlı təbəqələrin azlığı və qriqoryan kilsəsinin təzyiqi üzündən sıxışdırılıb unuduldu və təbii olaraq məhv oldu.Erməni dili Alban dilini əvəz etdi."(2,58.)

Bizim dövrümüz çoxəsirlik dünya qazanında bişmiş sinxronik bir aləmdir. Biz bu aləmdə şamanlıq, büdpərəstlik, hər bir şeyə tapınma, xristianlıq, islamçılıq və s. anlamları görə bilərik. Tarixin inkişaf xətti və fəlsəfi duyum, bunu bizə imkan verir deyək ki, bütün bəşəriyyətin son nöqtədə birləşmə ehtimalı labüddür. Çünki bəşər övladının başlanğıcı və sonu eyni nöqtədə dərk olunur. Yuxarıda söylənilən fikirlərin təsdiqini görkəmli filoloq alim, əməkdar elm xadimi, mərhum professor Mirəli Seyidovun "Azərbaycan xalqının soykökyny düşünərkən" əsərində tapa bilərik. M.Seyidov yazmışdır: "...Azərbaycandilli qəbilələrin, qəbilə birləşmələrinin eradan on dörd yüz il qabaq Azərbaycanda yaşaması haqqında bilgi vardır. Sonrakı yüzilliklərdə (IV-III) onlar burada elliklə yaşamış və vaxtaşırı el-el buraya gəlib qohum, qardaş qəbiləbirləşmələrinə qaynayıb-qarışmışlar.

Burada yaşayan və eradan qabaq axınla gələn türkdillilərin dili azı-azı eranın ilk yüzilliklərindən tutmuş ümümxalq danışıq dili qatına yüksəlirdi. Belə olmasaydı, aşağıda görəcəyimiz kimi, V yüzillikdə "Dəli Domrul boyu" Qafqazda, xüsusilə Ermənistanda, Gürcüstanda yayılmazdı və onun yaxından iştirakı ilə əsərlər yaranmazdı. Musa Qağanqatlı əsərində göstərir ki, hələ eranın V yüzilliyində Qazan xan və onun qardaşı haqqında tarixi əfsanə, ola bilsin elə lap əsl əfsanə varmış. Və tarixçi onu az-çox dəyişikliklə əsərinə salmışdır. Ola bilsin ki, Qazanxan əfsanəsini tarixiləşdirmişdir. Deməli Dəli Domrul əfsanəsi, Qazan xan tarixi əfsanə hələ V yüzillikdə Qafqazda Azərbaycan dilində yayılıbmış. Çoxdan-eradan 14 yüz il qabaq yaşamış və sonradan axın halında gələnlər Qafqazda türk dilinin qatını daha da artırmış və bu da Azərbaycan dilinin yayılma arealını genişləndirmişdir, tarixi şərait, ictimai mühit ətrafdakı dillərə təsir etməyə, qarşılıqlı ilişgilərə əsas yaratmışdır. Belə bir durumda mədəni, dil bağları daha da genişlənirdi. Eranın ilk yüzilliklərindən böyük axınla xəzərlər, az sonra hunlar və b. qəbiləbirləşmələri,

xalqlar Qafqaza gəlirlər. Türk qatı böyüyür, genişlənir, ictimai durumu daha da möhkəmlənir. Belə bir durumun qonşu dillərə, xüsusilə erməni dilinə təsiri özünü açıqca göstərir. Bu dil hadisəsini duyan görkəmli bilici H.Acaryan əlli ildən çox müasir erməni dili (aşğarapar) ilə əski erməni dili (qrapar) arasındakı böyük, ciddi ayrılıq, fərq haqqında düşünmüş və axırda yazmışdır:

"Erməni dili strukturunun (sintaksis nəzərdə tutulur-M.S.) quruluşuna görə öz çevrəsində olan və onu işğal edən dillərin-latıncanın, yunancanın, fransızcanın, ərəbcənin, assoricənin və hətta kürdcənin strukturuna quruluşuna uyğun ola-ola birdən-birə bunlardan uzaqlaşır və türk-tatar dillərinin strukturuna oxşayır? Bu oxşayış tamam təsadüfidirmi? Erməni dilinin struktur qurluşunun dəyişilməsinin səbəbləri yoxdurmu?"(H.Acaryan, Erməni dilinin tarixi, Yerevan, 1951, səh. 292)

H.Acaryan erməni dilindəki böyük dəyişikliklərdən bəhs edərək yazır ki, hər kəs qraparla aşğarapan müqayisə edərsə ən kiçik məsələdə belə böyük müxtəlifliyi, fərqi görər. Müəllif fikrini isbat etmək üçün bir çox qrammatik məsələləri misal çəkir. O, feldə, təyində və s. dəyişiklikləri göstərir. Erməni dilinin qruluşundakı ciddi dəyişikliyə H.Acaryan VII yüzilliyin tarixçisi Hovhonnes Mamikonyanın, XI yüzilliyin şairi Heraqasinin dilində tuş olarakən təəccüblənmişdir.

Bizcə, Hovhannes Mamikonyanın dilindəki dəyişiklik təbii dil hadisəsidir. Əgər Mamikonyanların köklərinin uyğurlarla qan qohumluğu göz qarşısına gətirilərsə, onda məsələ az-çox aydın olar. Görünür ki, türkdilli Mamikonyanlar erməniləşərkən qraparın qrammatik quruluşunda istər-istəməz dəyişiklik etmişlər". (5, 436)

Buradan bir daha aydın olur ki,ermənilər türk tayfasının adı altında gizlənib dilinin qrammatik strukturunu da türk dilinin təsiri altında formalaşdırıblar.(3,56-61)

"Aparılan araşdırmalar və tədqiqatlar nəticəsində aydın olur ki,ermənilər müxtəlif vaxtlarda gah Əhəməni fars imperiyasının,gah Makedoniyalı İsgədərin,gah Azərbaycan-Atropatenanın,gah da türklərin hakimiyyəti altında olmüşlar.Onu da qeyd etmək lazımdır ki,ermənilər hansı dövlətin ərazisində yaşayırdısa,o dövlətin tarixini özününkü kimi qələmə

verməyə,ona şərik çıxmağa başlayırdılar.Mənbələrin birində qeyd edilir ki.beləliklə."süni şəkildə yazılan və təbliğ olunan"erməni xalqının tarixi"həqiqətdə ayrı-ayrı erməni olmayan etnik feodalların tarixidir".(4,25).

Azərbaycanlı dedikdə Azərbaycanda yaşayan Azərbaycan xalqı nəzərdə tutulur. Burada gürcü, erməni, rus, ləzgi, türk, kürd və s. millətlər yaşayırlar. Gürcüstanlı dedikdə orada yaşayan bütün millətlər (gürcülər, ermənılər, ruslar, Azərbaycan türkləri və s.) nəzərdə tutulur. Eləcə də rusiyalı, polşalı, macarıstanlı və s. dedikdə orada yaşayan bütün millətlər nəzərdə tutulur. Odur ki, "azərbaycanlı" ifadəsi də sovet dönəmində millətimizin adının unudulması üçün işlədilmiş erməni siyasətinin bir variantıdır. Çünki "böyük Ermənistan" sovet idealogiyasına əsasən Azərbaycan türkü yox edilməli, bir millət kimi dərk olunmamalı idi. Əgər belə olmasaydı gürcüstanlılar içərisində gürcülər, ermənistanlılar içərisində erməni milləti, rusiyalılar içərisində rus milləti və s. olduğu halda azərbaycanlılar içərisində bizim millətin adı nədir?! Rus imperiyası 70 il ərzində Azərbaycanda xalq, Ermənistanda isə millət formalaşdırmışdır.

Məncə, bizim millətin adı Azərbaycan türküdür. Türk adını bizim üstümüzdən silməklə soy kökümüzdən, ulu mədəniyyətimizdən bizi təcrid etməklə, manqurdlaşma siyasəti yürütmüşlər. 70 il Azərbaycan türkü Sovet imperiyasının əsarəti altında olsa da, dünya miqyaslı həyat xalısında Azərbaycançılıq ilməsini nəqş etmişdir.

Amma bu gün biz bir millət kimi Azərbaycan türkü adlanmalıyıq, öz Dədə Qorqud adımızı özümüzə qaytarmalıyıq. Azərbaycanlı olmağı ilə Azərbaycanda yaşayan bütün millətlər fəxr edə bilər. Çünki Azərbaycan dünyanın cənnət məkanıdır. Bütün millətlər burada yaşamaq və azərbaycanlı olmaq arzusundadır. Ulu öndərimiz Heydər Əlirza oğlu Əliyev bu barədə demişdir: "Mən azərbaycanlı olmağımla fəxr edirəm!". Bu fikir həm də Azərbaycan türkü ifadəsi mənasında işlədilmişdir. Odur ki, mən də ulu öndərimizin söylədiyi fikrin davamı olaraq bir millətin nümayəndəsi kimi, yəni Azərbaycan türkü olmağımla fəxr edirəm. Azərbaycan dilində bütün millətlər danışa bilər, lakin bu dili Azərbaycan türk millətinin Azərbaycan türkü

qorumalı, sevməli və bütün dünyada təbliğ etməlidir. Çünki bu dil Azərbaycan türk dilidir.

Azərbaycan xalqı çoxmillətli tərkibə malikdir. Azərbaycanda əhalinin milli tərkibə görə 90,6%-ni Azərbaycan türkləri təşkil edir. Lakin burada başqa millətlərin nümayəndələri də yaşayırlar. Bəzən "başqa millətlərin nümayəndələri" əvəzinə "başqa xalqların nümayəndələri" ifadəsi işlədilir ki, bu ifadə də yanlışdır. Çünki hər bir dövlətin öz xalqı və xalqının milli tərkibi vardır. Ona görə də hər bir dövlətin, xalqının milli tərkibi də müxtəlifdir. Bu baxımdan ayrı-ayrı xalqların milli-tərkibi Azərbaycanda ola bilməz. Odur ki, Azərbaycanda ayrı-ayrı xalqların deyil, millətlərin nümayəndələri yaşayırlar. Burada Rus, Ləzgi, Gürcü və s. millətlərin nümayəndələri vardır ki, sovet dövründə bunlara "az saylı xalqlar" deyirdilər. Bu ifadə də yanlışdır. Az saylı xalq olmaz, xalqın içərisində millətin say tərkibinə görə az və ya çoxluğu ola bilər. Odur ki, Azərbaycanda 7953,9 mln. nəfər xalqın milli tərkibə görə sayı (1999-cu il siyahıya alınmaya əsasən) aşağıdakı kimidir:

	sayı (mln nəfərlə)	Yekuna nisbətən %-lə
1. Azərbaycan türkləri –	7205,5 mln. nəfər	90,6
2. Ləzgilər –	178,0	2,2
3. Ruslar –	141,7	1,8
4. Ermənilər –	120,7	1,5
5. Talışlar –	76,8	1,0
6. Avarlar –	50,9	0,6
7. Türklər –	43,9	0,5
8. Tatarlar –	30,0	0,4
9. Ukraynalılar –	29,0	0,4
10.Saxurlar –	15,9	0,2
11.Gürcülər –	14,9	0,2
12.Kürdlər –	13,1	0,2
13.Tatlar –	10,9	0,3
14.Yəhudilər –	8,9	0,1
15.Udinlər –	4,2	0,05
16.Digərləri –	9,5	0,12
		(1,95)

